**Birləşmiş Millətlər Təşkilatının fəaliyyətinin 60 istiqaməti**

Birləşmiş Millətlər Təşkilatı 60 il əvvəl gələcək nəsillərin müharibədən qorunması, hüquqlarının müdafiəsi, ədalətin təmin olunmasına nail olmaq və daha yaxşı həyat səviyyəsinin qurulması məqsədi ilə yaradılmışdır.

Eyni zamanda, 60 il ərzində beynəlxalq terrorizmdən tutmuş iqlim dəyişikliyinə, infeksion xəstəliklərin yayılmasından milli sərhədlərin hüdudlarını aşan digər təhlükələrə qədər yeni çətinliklər meydana gəlmişdir.

Bu qlobal problemlər heç zaman tək bir ölkənin fəaliyyəti nəticəsində həll edilə bilməz. Dünyanın yeganə ümumdünya institutu kimi BMT mövcud çətinliklərin qarşısını almaq məqsədi ilə qlobal fəaliyyəti təmin etmək üçün ən yaxşı forum rolunu oynayır.

Qısa və spesifik nümunələr vasitəsi ilə bu kitabça Birləşmiş Millətlər Təşkilatının bu günə qədər olan bəzi fəaliyyətini və təşkilatın gələn nəsillər naminə üzərinə düşən bu əhəmiyyətli vəzifəsini gələcəkdə necə davam etdirə biləcəyi məsələlərini işıqlandırır.

Ban Ki-mun
BMT-nin Baş Katibi

Birləşmiş Millətlər Təşkilatı fəlakətli müharibə başa çatandan dərhal sonra beynəlxalq münasibətləri sabitləşdirmək və sülhün təmin edilməsi üçün daha etibarlı təməl yaratmaq üçün təsis edilmişdir.

Nüvə müharibəsi təhlükəsi, həmçinin aramsız regional münaqişələr şəraitində sülhün təmin edilməsi Birləşmiş Millətlər Təşkilatının birinci dərəcəli vəzifəsinə çevrildi, mavi dəbilqəli sülh yaradıcılarının fəaliyyəti isə tarixə ən təqdirəlayiq fəaliyyət istiqaməti kimi düşdü.

Bununla belə, Birləşmiş Millətlər Təşkilatı yalnız sülhün yaradılması və münaqişələrin həlli üçün bir forum rolunu oynamır. Birləşmiş Millətlər Təşkilatı və ona daxil olan agentliklər bütün dünyada insanların həyatını yaxşılaşdırmaq üçün çoxsaylı sahələrdə çox vaxt diqqət cəlb etmədən fəaliyyət göstərirlər.

Uşaqların həyatda qalması və inkişafı. Ətraf-mühitin qorunması. İnsan hüquqları. Səhiyyə və tibbi tədqiqatlar. Yoxsulluğun azaldılması və iqtisadi inkişaf. Kənd təsərrüfatının və balıqçılığın inkişafı. Təhsil. Qadınların imkanlarının genişləndirilməsi. Fövqəladə hallar və təbii fəlakətlər zamanı yardım. Hava və dəniz ilə sərnişin daşınmaları. Atom enerjisindən sülh məqsədləri üçün istifadə. Əməyin mühafizəsi və işçilərin hüquqlarının müdafiəsi. Bu siyahını hələ çox davam etdirmək olar.

Aşağıda Birləşmiş Millətlər Təşkilatının və ona daxil olan qurumların bu ümumdünya təşkilatı 1945-ci ildə təsis edildikdən sonra əldə etdiyi nailiyyətlərdən qısa nümunələr verilir.

## 1 Sülhün və təhlükəsizliyin təmin edilməsi

Ötən 60 il ərzində dünyanın "qaynar nöqtələr"inə bütövlükdə 63 sülhməramlı və müşahidə missiyası göndərərək Birləşmiş Millətlər Təşkilatı bir çox ölkələrin münaqişədən sonra bərpa olunması üçün asayişə nail olmuşdur. Hazırda, dünyanın 119 ölkəsindən olan 88500 igid qadın və kişilər başqalarının gedə bilmədiyi və ya getmək istəmədiyi yerlərdə 17 sülh-yaradıcı əməliyyat fəaliyyət göstərir.

## 2 Sülhün yaradılması

1990-cı ildən bəri, BMT-nin vasitəçiliyi və ya BMT-nin dəstəyi ilə fəaliyyət göstərən üçüncü tərəf vasitəsi ilə bir çox münaqişələrə son qoyulmuşdu. Məsələn, El Salvador, Qvatemala, Namibiya, Komboca, Mozambik, Əfqanıstan, Sierra Leone və şimali və cənubi Sudan münaqişələrinin dayandırılmasını göstərmək olar. Birləşmiş Millətlər Təşkilatının sülh yaratmaq, sülhü qorumaq və müharibələrin qarşısının alınması üzrə inamlı fəaliyyəti 1990-cı ildən bəri dünyada olan münaqişələri 40 faiz azaltmışdır. BMT-nin preventiv siyasəti və qarşısını alma tədbirləri bir sıra potensial münaqişələrin yaranmasına mane olmuşdur. BMT-nin regionlarda fəaliyyət göstərən sülh missiyaları münaqişədən sonrakı vəziyyət və sülhün qurulması məsələləri ilə məşğul olurlar.

## 3 Nüvə silahının yayılmasının qarşısının alınması

Birləşmiş Millətlər Təşkilatı Atom Enerjisi üzrə Beynəlxalq Agentliyi (MAQATE) 50 ildən çoxdur ki, dünyanın nüvə müfəttişi kimi fəaliyyət göstərir. Agentliyin ekspertləri nüvə materiallarının yalnız sülh məqsədləri üçün istifadə olunmasını yoxlayır. Bu günə qədər Agentlik 163 dövlət ilə qarant sazişi bağlanmışdır.

## 4 İnkişafa dəstək

Birləşmiş Millətlər Təşkilatı öz diqqət və resurslarını bütün dünyada insanların yaşayış səviyyəsinin, bacarıq və potensiallarının artırılmasına sərf edir. 2000-ci ildən bəri bu fəaliyyət Minilliyin İnkişaf Məqsədləri (MİM-lər) çərçivəsində tənzimlənir. Faktiki olaraq, inkişafa yardım üçün ayrılan bütün vəsaitlər ayrı-ayrı ölkələr tərəfindən ianə kimi təqdim edilir. Məsələn, 166 ölkədə təmsil olunan BMT-nin İnkişaf Proqramı yoxsulluğun azaldılması, səmərəli idarəçiliyin təbliği, böhranların aradan qaldırılması və ətraf mühitin qorunması istiqamətlərində layihələri dəstəkləyir. 155 ölkədə fəaliyyət göstərən UNICEF, əsasən, uşaqların qorunması, immunizasiya, HİV/AİDS ilə mübarizə və qızların təhsili sahələrində çalışır. BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı (UNCTAD) ölkələrin inkişafa dəstək vermələri üçün ticarət imkanlarından maksimum istifadə etmələrinə kömək edir. Bundan başqa, Dünya Bankı inkişaf etməkdə olan ölkələrə kreditlər və qrantlar təqdim edir və 1947-ci ildən bəri 10.000 -dən artıq inkişaf layihəsinin icrasına dəstək vermişdir.

## 5 Diqqətin Afrikada inkişafa yönəldilməsi

Afrika Birləşmiş Millətlər Təşkilatı üçün əsas prioritet istiqamətlərdən biri olaraq qalmaqdadır. 2001-ci ildə Afrikanın dövlət başçıları qitənin öz planını – Afrikanın İnkişafı üçün Yeni Tərəfdaşlıq sənədini – qəbul etdilər və bu plan 2002-ci ildə Baş Assambleya tərəfindən Afrikaya beynəlxalq yardımın göstərilməsi üçün əsas sənəd kimi təsdiq edildi. BMT sisteminin regionlar üzrə inkişaf məqsədlərinə ayırdığı maliyyə vəsaitinin ən böyük hissəsi – 38 faizi Afrika qitəsinin payına düşür. BMT-nin bütün agentlikləri Afrikaya yardım üzrə xüsusi proqramlar həyata keçirir.

**6 İqlim dəyişikliyinin qlobal həlli**

İqlim dəyişikliyi qlobal bir problem olduğundan qlobal həll tələb edir. Birləşmiş Millətlər Təşkilatı elmi qiymətləndirmə aparmaqda və siyasi həllin irəliləməsində aparıcı rol oynayır. İqlim dəyişikliyi üzrə 2000 nəfər aparıcı mütəxəssisi bir araya gətirən İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Ekspertlər Qrupu hər beş və ya altı ildən bir hərtərəfli elmi qiymətləndirmə hazırlayır: 2007-ci ildə həmin bu qiymətləndirmə əsasında bir daha sübut olundu ki, iqlim dəyişikliyi baş verir və insan fəaliyyəti bunun əsas səbəbidir. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 192 Üzv dövlətləri həm iqlim dəyişikliyinə səbəb olan tullantıların azaldılmasına istiqamətləndirən və eyni zamanda ölkələrə onun təsirinə uyğunlaşmağa yardım edən uzun müddətli razılıqlar üzrə danışıqlar aparır. BMT-nin Ətraf Mühit üzrə Proqramı (UNEP) və digər BMT agentlikləri bu sahədə maarifləndirmənin artırılmasında öndə gedirlər.

**7 Ölkələrə İqlim dəyişikliyi ilə mübarizədə dəstək**.

BMT qlobal iqlim dəyişikliyindən irəli gələn problemlərlə mübarizədə inkişaf etməkdə olan ölkələrə kömək edir. BMT-nin iyirmi yeddi agentliyi problem ilə hər tərəfli məşğul olmaq üçün əməkdaşlıq formalaşdırmışdır. Məsələn, BMT İnkişafı Proqramı, BMT Ətraf Mühiti Proqramı və Dünya Bankını bir araya gətirən Qlobal Ətraf Mühit İmkanları inkişaf etməkdə olan ölkələrdə layihələri maliyyələşdirir. İqlim üzrə Konvensiyasının maliyyə mexanizmi qismində, o, hər il enerji effektivliyi, yenilənən enerji və onun davamlı daşınması sahəsində olan layihələrə təxminən 250 milyon ABŞ dolları ayırır.

**8 Ətraf mühitin qorunması**

Birləşmiş Millətlər Təşkilatı qlobal ekoloji problemlərin həlli istiqamətində iş aparır. Konsensusun və danışıqlar yolu ilə razılaşmaların əldə edilməsi üçün beynəlxalq forum rolunu oynayan BMT iqlimin dəyişməsi, ozon təbəqəsinin nazilməsi, zəhərli tullantılar, meşə örtüyünün və bioloji növlərin tükənməsi və hava və suyun çirkləndirilməsi kimi qlobal problemlərin həlli ilə məşğul olur. Bu problemlər həll edilməzsə, bazarların və iqtisadiyyatların uzun müddətli davamlılığını təmin etmək qeyri-mümkün olacaqdır, çünki ekoloji vəziyyətin pisləşməsi iqtisadi artım və insan həyatının qaynaqlandığı təbii "kapitalın" tükənməsinə gətirib çıxarır.

## 9 İnsan hüquqlarının təmin edilməsi

1948-ci ildə Baş Assambleya tərəfindən İnsan Hüquqları haqqında Ümumi Bəyannamə qəbul ediləndən sonra Birləşmiş Millətlər Təşkilatı siyasi, mülki, iqtisadi, sosial və mədəni hüquqlara dair onlarla hərtərəfli sazişin qəbul və icra edilməsinə kömək etmişdir. BMT-nin insan hüquqlarının müdafiəsi ilə məşğul olan orqanları fərdi şikayətləri araşdıraraq dünya ictimaiyyətinin diqqətini işgəncə, insanların itkin düşməsi, səhvən həbsə alınması və digər hüquq pozuntu hallarına yönəldir, eyni zamanda hökumətlərin öz ölkələrində insan hüquqları ilə bağlı vəziyyəti yaxşılaşdırmaları üçün beynəlxalq ictimaiyyətin onlara təzyiq göstərməsinə yardım edir.

## 10 Demokratiyanın inkişafına dəstək

Birləşmiş Millətlər Təşkilatı bir çox ölkələrdə əhaliyə azad və ədalətli seçkilərdə iştiraka yardım etməklə yanaşı, bütün dünyada demokratik institutların və idarəetmə metodlarının inkişaf etdirilməsinə və gücləndirilməsinə kömək edir. BMT 100-dən artıq ölkəyə, o cümlədən Kamboca, Salvador, Mozambik, Cənubi Afrika, Şərqi Timor, Əfqanıstan, İraq, Burundi, Konqo Demokratik Respublikası və Nepal kimi ölkəyə çox zaman həmin ölkələrin tarixinin dönüş mərhələlərində seçkilərlə bağlı, eləcə də seçkilərin nəticələrinin monitorinqi sahəsində, tövsiyələr vermiş, yardım göstərmişdir.

## 11 Qadın hüquqlarının dəstəklənməsi

Qadınların vəziyyətinin yaxşılaşdırılması və qadınların özlərinin öz həyatlarını idarə etmələri üçün imkanlarının genişləndirilməsi Birləşmiş Millətlər Təşkilatının uzun müddətli məqsədlərindən biridir. BMT tarixdə ilk dəfə Qadınların vəziyyəti üzrə Ümumdünya konfransı keçirmiş (1975-ci il, Mexiko şəhərində) və həmin konfrans Beynəlxalq Qadın Onilliyi (1976-1985) və Pekində keçirilən Ümumdünya Konfransı (1995) ilə birgə qadın hüquqlarının inkişafı və gender bərabərliyinin təbliğ edilməsi üçün gündəliyi formalaşdırmışdır. 185 ölkə tərəfindən ratifikasiya edilən Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında BMT-nin 1979-cu il Konvensiyası qadın hüquqlarının bütün dünyada təşviqi sahəsində mühüm rol oynamışdır.

## 12 Müharibə cinayətkarlarının təqib edilməsi

BMT-nin keçmiş Yuqoslaviya və Ruanda üçün təsis etdiyi tribunallar müharibədə cinayət törətmiş şəxsləri məhkum edərək azadlıqdan məhrum etmiş, genosid və digər beynəlxalq hüquq pozuntusu halları ilə məşğul olan beynəlxalq humanitar və beynəlxalq cinayət hüququnun genişləndirilməsinə yardım etmişdir. Hər iki tribunal regionda zərər çəkmiş ölkələrdə sülh və ədalətin bərqərar olunmasına köməklik göstərmişdir. Beynəlxalq cinayət məhkəməsi genosid, insanlığa qarşı cinayətkarlıq və müharibə cinayətində təqsirli bilinənləri azad şəkildə və dəyişməz yer olaraq məhkəməyə cəlb edir. Konqo Demokratik Respublikası, şimali Uqanda, Sudanın Darfur regionu və Mərkəzi Afrika Respublikasında olan hadisələr bu məhkəməyə artıq cəlb olunmuşlar. Sierra Leone və Kambocada BMT-nin dəstəklədiyi məhkəmələr beynəlxalq hüququn ciddi pozuntuları,

həmçinin kütləvi qırğınlar və hərbi cinayətlərdə məsuliyyətli olanları məhkəməsi ilə məşğul olur.

**13 Cənubi Afrikada irqi əsasda təcrid olunma hallarının (aparteidin) aradan qaldırılması**

Silaha embarqonun tətbiqindən başlayaraq idman tədbirlərində seqreqasiyaya qarşı konvensiyanın qəbul edilməsinə qədər müxtəlif tədbirlərin köməyi ilə Birləşmiş Millətlər Təşkilatı aparteid sisteminin tənəzzülündə əsas amil rolunu oynamışdır. 1994-cü ildə bütün Cənubi Afrikalıların bərabər əsasda iştirakına icazənin verildiyi seçkilər çox-irqli hökumətin formalaşmasına gətirib çıxardı.

**14 Öz müqəddəratını müəyyən etmək imkanı və müstəqilliyin dəstəklənməsi**

Birləşmiş Millətlər Təşkilatı 1945-ci ildə təsis edilərkən 750 milyon insan, yəni dünya əhalisinin, demək olar ki, üçdə bir hissəsi müstəmləkəçi qüvvələrdən asılı müstəqil olmayan ərazilərdə yaşayırdı. BMT hazırda suveren dövlət olan 80-dən artıq ölkənin müstəqillik qazanmasında öz rolunu oynamışdır.

**15 Beynəlxalq hüququn gücləndirilməsi**

Birləşmiş Millətlər Təşkilatının səyləri sayəsində insan hüquqları, terrorizm və beynəlxalq cinayətkarlıqla mübarizə, qaçqınlar, tərksilah, ticarət, xammal və okean rejimi ilə əlaqədar 510 - dan artıq çoxtərəfli sazişlər üzrə danışıqlar aparılmış və razılıqlar əldə edilmişdir.

**16 Qaçqınlara humanitar yardımın göstərilməsi**

1951-ci ildən bəri BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, çox zaman digər qurumların da iştirakı ilə, müharibə, aclıq və ya təqiblərdən xilas olan 50 milyondan artıq qaçqına davamlı surətdə yardım göstərmiş və göstərməkdədir. Təşkilat qaçqınların vətənlərinə orada münasib şəraitin olduğu təqdirdə repatriasiyasına və ya sığınacaq tapdıqları ölkələrdə inteqrasiyasına, yaxud üçüncü ölkələrə köçməsinə kömək edərək uzun müddətli və ya “davamlı” həll yolları tapmağa çalışır. Əsasən, qadınlar və uşaqlardan ibarət olan 25 milyondan artıq qaçqın, sığınacaq axtaran şəxs və məcburi köçkün BMT tərəfindən ərzaq, yaşayış yeri, tibbi yardım ilə təmin edilir, təhsil və repatriasiya üçün yardım alır.

**17 Fələstinli qaçqınlara yardımın göstərilməsi**

İsraillilər və fələstinlilər arasında davamlı sülhün əldə edilməsi üçün beynəlxalq ictimaiyyət tərəfindən göstərilən səylərin zəminində, Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə BMT-nin Yaxın Şərq Agentliyi fələstinli qaçqınların artıq dördüncü nəslinə təhsil, səhiyyə, sosial xidmətlər, mikro-maliyyələşdirmə və fövqəladə hallarda

yardım sahələrində yardım göstərir. Bu gün, yaxın şərqdə 4.4 milyon qaçqın bu agentliyin üzvüdür.

**18 İnkişaf etməkdə olan ölkələrdə kənd yerlərində yoxsulluğun azaldılması**

Kənd-təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond (İFAD) əsasən çox yoxsul kənd əhalisinə az faizli kreditlər verir. Fəaliyyətə başladığı 1978-ci ildən bəri İFAD 10 milyard ABŞ dollarından artıq sərmayə yatırmaqla 300 milyon qadın və kişiyə öz gəlirlərini artırmaqda və ailələrini təmin etməkdə yardım etmişdir. Bu gün İFAD 81 inkişaf etməkdə olan dövlətdə 200-dən artıq proqram və layihəyə dəstək verir.

**19 Qadınların rifahının yüksəldilməsi**

Birləşmiş Millətlər Təşkilatı qadınların bərabərliyi və rifahının təşviqinə dəstək verir. BMT-nin Qadınlar üçün İnkişaf Fondu (UNİFEM) 100-dən artıq ölkədə qadınlara qarşı zorakılığın aradan qaldırılması, HİV/AİDS-ə yoluxma hallarının azaldılması və qadınların iqtisadi təhlükəsizliyinin yüksəldilməsinə – məsələn, onların məşğulluq imkanlarını, habelə torpağa sahiblik və varislik hüquqlarının genişləndirməsinə yönələn layihələri dəstəkləyir. Qadınların İmkanlarının Genişləndirilməsi üzrə Beynəlxalq Tədqiqat və Təlim İnstitutu (QİGBTTİ) qadınların həyat şəraitinin yüksəldilməsinə və fəaliyyət yönümlü tədqiqat aparma və təhlükəsizlik, miqrasiya və idarəçilik üzrə treninqlər vasitəsi ilə qadın hüquqlarının təşviqinə kömək edir. BMT-nin bütün agentlikləri qadınların ehtiyaclarını nəzərə almalıdırlar.

**20 Reproduktiv sağlamlığın və ana sağlamlığının təmin edilməsinə dəstək**

Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu (UNFPA) hər bir insanın nə zaman neçə uşağa malik olmaq haqqında müstəqil qərar vermək hüququnu dəstəkləyir, ailənin könüllü planlaşdırılması proqramları vasitəsilə insanlara əsaslandırılmış seçim etməyə kömək edir və ailələrin, xüsusilə qadınların, özlərinin öz həyatlarını idarə etməsi imkanlarını genişləndirir. Bu fəaliyyətin nəticəsində, inkişaf etməkdə olan ölkələrdə bir qadına nisbətdə uşaqların sayı XX əsrin 60-cı illərində altı nəfərdən bu gün üç nəfərə qədər azalmış və nəticədə, dünya əhalisinin artım tempi səngimişdir. Arzuolunmaz hamiləlik hallarının azalması da daha az sayda ana ölümü və təhlükəli abort hallarının azalması deməkdir. UNFPA 1969-cu ildə fəaliyyətə başlayarkən cütlərin 20 faizdən az hissəsi ailə planlaşdırmasından istifadə edirdi; hal-hazırda, bu göstərici təqribən 63 faiz səviyyəsindədir. Eyni zamanda, UNFPA bir sıra tərəfdaşlar ilə birlikdə doğuş zamanı səriştəli mama xidmətinin, təxirəsalınmaz mama xidmətinin göstərilməsinə və ailə planlaşdırması proqramlarının genişləndirilməsinə kömək edir və bu yolla ana ölümü hallarını azaltmağa çalışır. UNFPA 90 ölkədə sağlam analıq təşəbbüsünü dəstəkləyir.

**21 Təhlükəsiz içməli suyun təmin edilməsi**

BMT-nin su resursları üzrə ilk onilliyində (1981-1990) bir milyard nəfərdən çox insan həyatlarında ilk dəfə təhlükəsiz su mənbəyindən istifadə imkanı əldə etdi. 1990-2002-ci

illər aralığında isə əlavə 1.1 milyard insan təhlükəsiz su mənbəyindən istifadə imkanı əldə etdi. Beynəlxalq İçməli Su İli elan edilən 2003-cü ildə bu qiymətli resursu mühafizə etməyin vacibliyi haqqında geniş məlumatlandırma kampaniyası aparıldı. İkinci beynəlxalq su onilliyində (2005-2015) qarşıya təhlükəsiz su mənbəyindən istifadə imkanı olmayan əhalinin say nisbətini iki dəfə azaltmaq məqsədi qoyulmuşdur.

**22 HİV/AİDS ilə mübarizə**

BMT-nin İÇ/QİÇS (HİV/AİDS) üzrə Birləşmiş Proqramı (UNAIDS), demək olar ki, 33 milyon insanı əhatə edən epidemiyaya qarşı qlobal mübarizə tədbirlərini əlaqələndirir. Proqram 80-dən çox ölkədə iş apararaq HİV-in profilaktikası və müalicəsi xidmətlərindən hamının istifadə edə bilməsini təmin etməyə, həmçinin fərdlərin və icmaların bu virusa qarşı həssaslığını azaltmağa və epidemiyanın təsirini yüngülləşdirməyə çalışır. UNAIDS çərçivəsində BMT-nin bu proqramı maliyyələşdirən 10 təşkilatının təcrübəsi bir araya gətirilir.

**23 Çiçək xəstəliyinin kökünün kəsilməsi**

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) 13 il ərzində göstərdiyi səyləri sayəsində 1980-ci ildə planetimizdə çiçək xəstəliyinin kökünün tamamilə kəsilməsi rəsmi şəkildə elan edildi. Nəticədə, hər il, vaxtilə peyvəndə və monitorinqə xərclənən təqribən 1 milyard ABŞ dollarına qənaət edilir – bu vəsait xəstəliyin kökünün kəsilməsinə xərclənən vəsaitdən təqribən üç dəfə çoxdur.

**24 Poliomielitin kökünün kəsilməsi**

İndiyə qədər həyata keçirilən ən böyük miqyaslı səhiyyə kampaniyası olan Poliomielitin Kökünün Kəsilməsi üzrə Qlobal Təşəbbüsün sayəsində poliomielitin kökü dörd ölkə - Əfqanıstan, Hindistan, Nigeriya və Pakistan istisna olmaqla dünyanın bütün ölkələrində kəsilmişdir. Ümumdünya Səhiyyə Təşkilatı, UNICEF, “Rotary” klublarının beynəlxalq assosiasiyası və Xəstəliyin İdarə edilməsi və Profilaktikası üzrə ABŞ Mərkəzlərinin rəhbərliyi altında həyata keçirilən bu təşəbbüsün sayəsində poliomielit üzündən iflic ola biləcək təxminən 5 milyon uşaq normal yeriyir. Vaxtilə dünyanın müxtəlif yerlərində 125 ölkədə uşaqları əlil qoyan bir xəstəliyin kökü artıq, demək olar ki, kəsilmişdir.

**25 Tropik (parazitar) xəstəliklərlə mübarizə**

Ümumdünya Səhiyyə Təşkilatının Qərbi Afrikanın 10 ölkəsində 25 milyon hektar məhsuldar torpağı kənd-təsərrüfatı məqsədləri üçün istifadəyə verməklə çay korluğunun (onxoserkozun) kökünü kəsdi. Hazırda, daha 19 ölkədə bu xəstəlik Afrika Onxoserkoza Nəzarət Proqramı altında diqqət mərkəzində saxlanılır. 1991-ci ildə BMT agentliklərinin Şimali Afrikada gördüyü tədbirlərin nəticəsində, qorxunc ət milçəyi sürfəsinin – insan və heyvan toxuması ilə qidalanan parazitin kökü kəsilmişdir. Drakunkulyozun hazırda kökü kəsilməkdədir. Digər cüzam kimi geniş yayılmış xəstəliklərin kökü 122 endemik rayondan 116-da aradan qaldırılmış, limfatik filyariatoz, şistosomoz və digər yuxu gətirən xəstəliklər (Afrika insan trianasomiası) hazırda tam nəzarət altındadır.

**26 Epidemiyaların yayılması ilə mübarizə**

Ümumdünya Səhiyyə Təşkilatı kəskin respirator virus infeksiyasının (SARS) yayılmasının qarşısını almağa yardım etmişdir. 2003-cü ilin mart ayında ÜST tərəfindən qlobal xəbərdarlıq və xüsusi səyahət məsləhət toplusu hazırlandı və təşkilatın rəhbərliyi altında keçirilən tədbirlər nəticəsində dünya epidemiyasına çevrilə biləcək xəstəliyin qarşısı alındı. Hər il ÜST 200 SARS ocağını araşdırır. Onlardan, hər il, orta hesabla, 15-20 xəstəlik ocağı beynəlxalq miqyasda ciddi tədbirlərin görülməsini tələb edir. ÜST-ün qlobal şəkildə tədbir gördüyü ən geniş yayılmış xəstəliklərə meningit, sarılılıq, vəba və qrip daxildir.

**27 Ümumi immunizasiya üçün mübarizə**

İmmunlaşdırma (vaksinasiya) hər il 2 milyondan artıq insan həyatını xilas edir. Ümumdünya Səhiyyə Təşkilatı, UNICEF, digər təşkilatlar və hökumətlərin səyləri nəticəsində, dünya uşaqlarının 79 faizi poliomielit – göy öskürək – tetanus peyvəndi ilə təmin olunmuşdur, bu da 1980-ci il göstəricisindən 20 faiz artıqdır. 2000-2006-cı illər ərzində Afrikada qızılca xəstəliyindən ölüm hallarının sayı təqribən 91 faiz, ümumilikdə dünyada isə üçdə iki qədər azalmışdır. Yeni vaksinlərin təqdim olunmasında çətinliklərin qarşısı tədricən alınmaqdadır, immunlaşdırma məqsədilə qurulan əlaqələrdən istifadə etməklə malyariyadan qorunmaq üçün həşəratlar əleyhinə torlar və pis qidalanma əleyhinə A vitamininin təmin edilməsi kimi əlavə xilasedici yardım fəaliyyətləri həyata keçirilir.

**28 Uşaq ölümünün azaldılması**

1990-cı ildə hər on uşaqdan biri beş yaşına çatmamış dünyasını dəyişirdi. BMT agentlikləri tərəfindən həyata keçirilən rehidrasiya terapiyası, təmiz su və sanitariya, eyni zamanda digər sağlamlıq və qidalanma tədbirləri vasitəsi ilə inkişaf etməkdə olan ölkələrdə uşaq ölümünün səviyyəsi 2006-cı ildə hər on iki uşaqda bir nisbətindən də aşağıya enmişdir. Hazırda, məqsəd 1990-cı ildə müşahidə edilən beş yaşından aşağı uşaq ölümü göstəricisini 2015-ci ilə qədər üçdə-iki səviyyəyə endirməkdir.

**29 Sahibkarlıq fəaliyyəti üçün ilkin şəraitin yaradılması**

Birləşmiş Millətlər Təşkilatı sahibkarlıq fəaliyyətinə kömək göstərir. BMT statisika, ticarət hüququ, gömrük prosedurları, əqli mülkiyyət, aviasiya, yük daşınmaları və telekommunikasiya kimi fərqli sahələrdə qlobal miqyasda tətbiq edilən texniki standartların müzakirə olunaraq qəbul edilməsinə kömək etməklə iqtisadiyyat üçün "yumşaq infrastruktur" təmin etmiş və bu yolla iqtisadi fəaliyyəti asanlaşdırmış və sahibkarların əməliyyatlara çəkdiyi əlavə xərcləri azalda bilmişdir. Siyasi sabitlik və səmərəli idarəetməyə dəstək verərək, korrupsiya ilə mübarizə apararaq və sağlam iqtisadi siyasətin və sahibkarlıq fəaliyyətini asanlaşdıran qanunvericiliyin qəbulunu

stimullaşdıraraq BMT inkişaf etməkdə olan ölkələrə sərmayə yatırımı üçün münasib zəmin yaradır.

### 30 İnkişaf etməkdə olan ölkələrdə sənaye sektorunun dəstəklənməsi

BMT-nin Sənayenin İnkişafı Təşkilatı vasitəsilə (UNIDO), Birləşmiş Millətlər Təşkilatı şimal-cənub, eləcə də cənub-cənub xətti ilə sənaye sahəsində əməkdaşlığı əlaqələndirir və bu məqsədlə sahibkarlığı, investisiyaları, texnologiyaların ötürülməsini və gəlirli və davamlı sənayenin inkişafını təşviq edir. O, ölkələrə onların qloballaşma prosesini səmərəli idarə etmələri və yoxsulluğu sistemli şəkildə azalda bilmələri üçün kömək edir.

### 31 Təbii fəlakətlərdən zərər çəkmiş şəxslərə yardım

Təbii fəlakətlər və fövqəladə hallar baş verdikdə, BMT zərər çəkənlərə yardımın göstərilməsi prosesini əlaqələndirir və səfərbər edir. Beynəlxalq Qızıl Xaç /Qızıl Aypara Hərəkatı, həmçinin yardım göstərən digər əsas təşkilatlar və donorlar ilə iş birliyi şəraitində, BMT-nin operativ xidmətləri əhaliyə həyati əhəmiyyətli humanitar yardım göstərir. BMT-nin fövqəladə humanitar yardımın göstərilməsi ilə əlaqədar çağırışları ildə bir neçə milyard ABŞ dollarından artıq vəsaiti yığmağa imkan verir.

### 32 Təbii fəlakətlərin nəticələrinin yüngülləşdirilməsi

Ümumdünya Meteorologiya Təşkilatı (ÜMT) milyonlarla insan həyatını təbii və antropogen fəlakətlərin faciəli nəticələrindən xilas etməyə kömək edir. ÜMT-nın minlərlə yerüstü müşahidə qurğusu, həmçinin peyklərdən ibarət olan erkən xəbərdarlıq sisteminin köməyi ilə hava ilə bağlı fəlakətləri kifayət qədər yüksək dəqiqliklə proqnozlaşdırmaq, ətrafa dağılmış neft, kimyəvi və nüvə materiallarının yayıldığı ərazi haqqında məlumat əldə etmək və uzun müddətli quraqlıqları proqnoz etmək mümkündür. Eyni zamanda, ÜMT quraqlıqdan zərər çəkən regionlara humanitar yardımın cəld və səmərəli şəkildə çatdırılmasına kömək edir.

### 33 Sunamidən zərər çəkənlərə yardımın göstərilməsi

2004-cü il dekabrın 24-ü Hind okeanı sahilində yerləşən ölkələrə zərbə endirən sunamidən sonra 24 saat ərzində, Birləşmiş Millətlər Təşkilatı fəlakətin miqyasının qiymətləndirilməsi və əlaqələndirmə üzrə qruplarını ən ciddi zərər çəkən rayonlara göndərmişdi. Fövqəladə yardım tədbirlərinin ilk altı ayı ərzində, BMT fəlakət qurbanlarına yardım etmək üçün təcili addımlar atdı – 1.7 milyondan artıq insana ərzaq məhsulları payladı, evini itirmiş 1.1 milyondan artıq insanı sığınacaqla, 1 milyondan çox insanı isə içməli su ilə təmin etdi, habelə 1.2 milyondan çox uşağın qızılcaya qarşı peyvəndlənməsini təmin etdi. Humanitar yardımın çevik və səmərəli çatdırılması sayəsində fəlakətdən sonrakı günlərdə yardım çatışmazlığı üzündən əlavə insan itkisinə yol verilmədi və infeksion xəstəliklərin yayılmasının qarşısı alındı.

## 34 Ozon təbəqəsinin qorunması

BMT-nin Ətraf-Mühit Proqramı (UNEP) və Ümumdünya Meteorologiya Təşkilatı (ÜMT) Yer kürəsinin ozon təbəqəsinin zədələnməsi probleminin diqqət mərkəzinə gətirilməsində mühüm rol oynamışlar. Monreal Protokolu kimi tanınan razılaşmanın bağlanması sayəsində dünya ölkələrinin hökumətləri ozon qatının nazilməsinə səbəb olan kimyəvi maddələri istifadədən çıxarır və onları daha təhlükəsiz alternativ maddələrlə əvəz edirlər. Bu tədbirlər milyonlarla insanı artıq ultrabənövşəyi şüalanmanın səbəb olduğu hazırda daha çox yayılmaqda olan dəri xərçəngi riskindən xilas edəcəkdir.

## 35 Yerüstü minaların təmizlənməsi

Birləşmiş Millətlər Təşkilatı Əfqanıstan, Anqola, Bosniya və Herseqovina, İraq, Mozambik və Sudan da daxil olmaqla 42 ölkə və ərazini yerüstü minalardan təmizləyir. Yerüstü minalar hər il minlərlə mülki vətəndaşın ölümünə və ya əlil olmasına səbəb olur. Bundan başqa, BMT əhalini mina təhlükəsindən qorunmaq üsullarını öyrədir, qurbanların müstəqil həyata qayıtmasına yardım edir, ölkələrə yerüstü mina ehtiyatlarının ləğv edilməsinə köməklik göstərir və yerüstü minalarla əlaqədar olan müqavilələrdə tam beynəlxalq iştirakı təmin edir.

## 36 Ehtiyaclı olan əhalinin ərzaq məhsulları ilə təmin edilməsi

Dünyanın ən böyük humanitar agentliyi olan Ümumdünya Ərzaq Proqramı (ÜƏP) hər il, orta hesabla, 80 ölkədə 90 milyon aclıqdan əziyyət çəkən insana, o cümlədən dünyada olan qaçqınların və məcburi köçkünlərin əksər hissəsinə yardım edir. ÜƏP-nın ərzaq yardımı aclıqdan ən çox əziyyət çəkən insanların, xüsusilə, qadınların və uşaqların məxsusi ehtiyacları nəzərə alınaraq hazırlanmışdır. ÜƏP ifrat yoxsulluq şəraitində yaşayan və pis qidalanan insanları hədəf kimi götürərək aclığa son qoymaq və onun kökünü kəsmək üçün çalışır. Məktəbdə qidalanmanın təmin edildiyi layihələr çərçivəsində 20 milyondan çox uşağa pulsuz nahar və ya evə aparmaq üçün ərzaq məhsulları verilir və bu halda bir nəfərin qidası cəmi 25 ABŞ sentinə başa gəlir. Agentliyin təcili telekommunikasiya sahəsində texniki təcrübəsi ən çətin və təhlükəli vəziyyətlərdə belə qısa müddət ərzində yardımı təmin edir. İşçi heyətinin doxsan faizi regionlarda çalışan ÜƏP, ehtiyacı olan insanlara çatmaq üçün su və hava nəqliyyatının qlobal şəbəkəsindən istifadə edir, lazım olduqda hətta ulaq, dəvə və fillərdən də istifadə edir. ÜƏP dünyanın hər bir yerində olan siyasi liderlərə öz mesajını çatdırmaqla aclıqdan əziyyət çəkənlərin müdafiəsində durur.

## 37 Aclıqla mübarizə

BMT-nin Ərzaq və Kənd təsərrüfatı Təşkilatı (FAO) aclıqla mübarizə aparmaq üçün göstərilən uzun müddətli qlobal səylərə rəhbərlik edir. Ümumi ərzaq təhlükəsizliyinin əsas məqsədi – dünyanın hər bir yerində insanların fəal, sağlam həyat tərzi sürmək üçün lazım olan yüksək keyfiyyətli qida almaq imkanı iəl təmin etməkdir. Həm inkişaf etmiş,

həm də inkişaf etməkdə olan ölkələrə xidmət göstərən FAO bütün dövlətlərin bərabər əsasda görüşdüyü, razılaşma əldə etmək üçün danışıqlar apardığı və siyasi məsələləri müzakirə etdiyi neytral bir forum rolunu oynayır. Eyni zamanda, FAO təbii resursların qorunması və qidalanmanın yaxşılaşdırılması yolları vasitəsi ilə inkişaf etməkdə olan ölkələrdə kənd, meşə və balıqçılıq təsərrüfatlarının aparılması metodlarının müasirləşdirilməsi və təkmilləşdirilməsinə və bütün əhalinin keyfiyyətli qida ilə təmin edilməsinə kömək edir.

**38 Balıq ehtiyatlarının nəzarətdə saxlanılması**

Dünyanın ticarət məqsədli balıq ehtiyatlarının yetmiş faizi bəzən ova qoyulan məhdudiyyətdən kənara çıxaraq istismara məruz qalır. FAO qlobal balıq istehsalına və vəhşi balıq ehtiyatlarının statusuna nəzarət edir, balıqçılığın idarə olunmasının yaxşılaşdırılması, məsuliyyətli beynəlxalq balıq ticarətinin təbliğ edilməsi və itməkdə olan növlərin və ətraf mühitin qorunması üçün ölkələrlə birgə işləyir.

**39 Zəhərli kimyəvi maddələrin qadağan edilməsi**

Bəşəriyyəti onun özü tərəfindən yaradılan bir sıra ən təhlükəli kimyəvi maddələrdən xilas etmək üçün Davamlı Üzvi Çirkləndiricilər haqqında Stokholm Konvensiyası qəbul edilmişdir. 150 ölkə tərəfindən qəbul edilən bu konvensiya insanı öldürə bilən, əsəb və immun sistemlərinə zərər vuran, xərçəng xəstəliyi və reproduktiv pozğunluqlara səbəb olan və uşağın inkişafına mənfi təsir göstərən 12 təhlükəli pestisid və sənayedə istifadə edilən kimyəvi maddəni əhatə edir. BMT-nin digər konvensiyaları və fəaliyyət planları bio-müxtəlifliyi, nəsli kəsilmək təhlükəsi altında olan bioloji növləri qorumağa, səhralaşma ilə mübarizə aparmağa, regional dənizləri təmizləməyə və təhlükəli tullantıların sərhədlər xaricinə hərəkətini məhdudlaşdırmağa kömək edir.

**40 İstehlakçıların sağlamlığının qorunması**

Satışa çıxarılan ərzaq məhsullarının təhlükəsizliyini təmin etmək üçün, BMT-nin Ərzaq və Kənd təsərrüfatı Təşkilatı və Ümumdünya Səhiyyə Təşkilatı üzv dövlətlərlə birlikdə 230 addan artıq ərzaq məhsulu üzrə standartlar, 3000-dən artıq ərzaq qablaşdırması üçün təhlükəsizlik normaları, habelə ərzaq məhsullarının emalı, daşınması və saxlanılması qaydalarını hazırlamışdır. Həmçinin, istehlakçıları müvafiq surətdə məlumatlandırmaq üçün yarlıqlar və malın təsviri üzrə standartlar qəbul edilmişdir. Hazırda dünyada daha çox ərzaq məhsullarının dövriyyə etdiyini nəzərə alan Birləşmiş Millətlər Təşkilatı onların təhlükəsiz olmasını təmin etmək üçün çalışır.

**41 Terrorizm ilə mübarizə**

Üzv dövlətlər Birləşmiş Millətlər Təşkilatı vasitəsi ilə terrorizmə qarşı mübarizə səylərini əlaqələndirirlər. 2006-cı ildə BMT terrorizmə qarşı mübarizə üzrə qlobal strategiya qəbul etməklə ilk dəfə olaraq bütün ölkələr terrorizmlə mübarizədə vahid yanaşma üzrə razılığa gəldilər. BMT-nin agentlik və proqramları hüquqi yardım göstərməklə və terrorizmə qarşı beynəlxalq əməkdaşlığı təbliğ etməklə ölkələrə vahid strategiyanın həyata

keçirilməsində yardım edir. Birləşmiş Millətlər Təşkilatı, eyni zamanda beynəlxalq terrorizm ilə mübarizə aparmaq üçün hüquqi baza yaratmışdır. Əsir götürülməsi, hava nəqliyyatının qaçırılması, terrorist bombalar, terroristlərin maliyyələşdirilməsi və bu yaxınlarda nüvə terrorizminə qarşı razılıqlar da daxil olmaqla BMT himayəsi altında altmış hüquqi sənədlər üzrə danışıqlar aparılıb.

**42 Mühüm beynəlxalq mübahisələrin məhkəmə yolu ilə həlli**

Beynəlxalq Ədalət Məhkəməsi qərarlar çıxararaq və məsləhətçi rəylər verərək beynəlxalq mübahisələri, o cümlədən ərazi məsələləri, dəniz sərhədləri, diplomatik münasibətlər, dövlətlərin öhdəlikləri, əcnəbilərə münasibət və güc istifadə edilməsi ilə əlaqədar beynəlxalq mübahisələrin həll edilməsinə yardım edir.

**43 Qlobal ticarət münasibətlərinin yaxşılaşdırılması**

Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf Konfransı (UNCTAD) inkişaf etməkdə olan ölkələrə ticarət sazişlərini razılaşdırmağa və öz ixracları üçün güzəştli rejimin tətbiqinə nail olmağa kömək edir. UNCTAD inkişaf etməkdə olan ölkələr üçün ədalətli qiymətlər təmin etmək məqsədilə beynəlxalq xammal razılaşmaları üzrə danışıqlar aparmış, bu ölkələrin ticarət infrastrukturunun səmərəliliyini yüksəltmiş və onların istehsalını müxtəlifləşdirmək və iqtisadiyyatlarının qlobal iqtisadiyyata inteqrasiyası üçün başqa köməkliklər göstərmişdir.

**44 İqtisadi islahatlara dəstək**

Dünya Bankı və Beynəlxalq Valyuta Fondu bir çox ölkələrə iqtisadi idarəetmənin təkmilləşdirilməsi sahəsində kömək etmiş, tədiyə balansı ilə əlaqədar çətinlikləri yüngülləşdirmək üçün ölkələrə müvəqqəti maliyyə yardımı təqdim etmiş və dövlət maliyyə qurumlarının rəsmiləri üçün təlimlər təşkil etmişdir.

**45 Dünya okeanlarında sabitliyin və qayda-qanunun təbliği**

Birləşmiş Millətlər Təşkilatı dünya okeanından istifadənin vahid müqavilə çərçivəsində tənzimlənməsi üçün aparılan beynəlxalq səylərə rəhbərlik etmişdir. 1982-ci ildə qəbul edilmiş və dünyanın, demək olar ki, bütün dövlətlərinin qoşulduğu BMT-nin Dəniz Hüququ haqqında Konvensiyası ilk dəfə dünya okeanında və dənizlərdə aparılan bütün fəaliyyətləri tənzimləyən universal hüquqi çərçivəni təmin etdi. Konvensiyada dəniz zonalarının yaradılması, gəmiçilik də daxil olmaqla sahilyanı və okeana çıxışı olmayan dövlətlərin hüquq və vəzifələri, dəniz sularında ətraf mühitin mühafizəsi, bu sahədə elmi araşdırmaların aparılması və dəniz sularında canlı resursların qorunub saxlanılması və davamlı istifadə sahəsində qaydalar öz əksini tapmışdır.

**46 Hava və dəniz ilə sərnişin daşınmalarının təkmilləşdirilməsi**

BMT agentlikləri hava və dəniz ilə sərnişin daşınmaları üzrə təhlükəsizlik standartlarının təsbit edilməsinə görə cavabdehlik daşıyır. Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) hava daşınmalarının ən təhlükəsiz nəqliyyat növünə çevrilməsinə öz töhfəsini vermişdir. 1947-ci ildə hava ilə səyahət edən 21 milyon sərnişindən 590 nəfəri təyyarə qəzalarında həlak olmuşdusa, 2007-cü ildə təyyarə qəzaları nəticəsində həlak olanların sayı 2.2 milyard sərnişindən 581 nəfər olmuşdu. Eynilə, Beynəlxalq Dəniz Təşkilatı (IMO) dənizlərin daha təmiz, gəmiçiliyin isə daha təhlükəsiz olmasına kömək etmişdir. Statistik göstəricilər gəmi daşınmalarının həm insanlar, həm də ətraf-mühit üçün daha təhlükəsiz nəqliyyata çevrilməsinə dəlalət edir. Gəmi itkisi və insan ölümü hallarının sayı kəskin enir, ətraf-mühitin çirkləndirilməsi hallarının, o cümlədən neft məhsulları ilə çirkləndirmə hadisələrinin sayı azalır, həmçinin havanın çirklənməsi və kanalizasiya tullantıları ilə mübarizə aparılır və bütün bunlarla yanaşı dənizlə yük daşınmalarının həcmi böyüməkdə davam edir.

### 47 Beynəlxalq cinayətkarlıqla mübarizə

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə Ofisi (UNODC) ölkələr və müxtəlif təşkilatlarla iş birliyi quraraq transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə aparır və bunun üçün korrupsiya, çirkli pulların yuyulması, qeyri-qanuni narkotik dövriyyəsi, insan ticarəti və miqrantların qaçaqmalçılığı ilə mübarizə sahəsində hüquqi və texniki yardımlar göstərir, habelə cinayət hüququ sistemlərini gücləndirməyə kömək edir. O, ölkələrə terrorizmin qarşısının alınmasına yardım edir və insan alverinə qarşı qlobal mübarizədə liderlik edir, Dünya Bankı ilə birlikdə korrupsiyaya qurşanmış başçıların mənimsədikləri mülklərin geriyə qaytarılmasında ölkələrə kömək edir. Bu, dəllallıqda əsas rol oynayır və Korrupsiyaya qarşı BMT Konvensiyası və Transmilli Cinayətlərə qarşı BMT Konvensiyası kimi münasib beynəlxalq Müqavilələr yerinə yetirir.

### 48 Narkotik maddələrin qeyri-qanuni dövriyyəsi ilə mübarizə

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə Ofisi (UNODC) narkotiklərə nəzarət üzrə üç BMT Konvensiyasını əldə əsas tutaraq qeyri-qanuni narkotik maddələrin təchizatı və onlara olan tələbatı azaltmaq istiqamətində çalışır. Ofis narkotiklərdən qanunsuz istifadənin qarşısının alınması, müalicə və nəzarətdə saxlamaq məqsədi ilə ictimai səhiyyənin, eyni zamanda ictimai təhlükəsizliyin yaxşılaşdırılması üçün ölkələrlə birgə çalışır. Qlobal narkotiklərlə bağlı problemin qarşısının alınması narkotiklərdən sui-istifadənin 25 il müddətində müşahidə olunan yüksəlişinə mane oldu və pandemiyanın qarşısını aldı. Bütün bu səylərə baxmayaraq, hələ də bir sıra ölkələr və regionlar narkotiklərin becərilməsi və ticarətindən irəli gələn qeyri-stabillik şəraitinə həssas olaraq qalırlar. Bu məqsədlə, ofis, Əfqanıstan, And ölkələri, Mərkəzi Asiya, Myanmar və Qərbi Afrikada narkotiklərə nəzarəti xüsusilə diqqət mərkəzində saxlayır.

### 49 Münasib əmək şəraitinin təmin edilməsinə dəstək

Beynəlxalq Əmək Təşkilatı (BƏT) insanların iş yerində mövqeyini müəyyən edən standartları, əsas prinsip və hüquqları müəyyən etmişdir – buraya yığıncaq azadlığı,

işəgötürənlər və həmkarlar ittifaqı arasında kollektiv əmək müqavilələrinin bağlanılması haqqında danışıqlar aparmaq hüququ, bütün məcburi əmək formalarının aradan qaldırılması, uşaq əməyinin ləğv edilməsi və iş yerində ayrı-seçkiliyə yol verilməməsi daxildir. Məşğulluğun təmin edilməsinə dəstək, hamı üçün sosial təminat və işəgötürənlərin və işçilərin təşkilatları və hökumətlər arasında səmərəli sosial dialoqun qurulması BƏT-in fəaliyyətində diqqət mərkəzində olan məsələlərdir.

**50 İnkişaf etməkdə olan ölkələrdə savadlılıq səviyyəsinin yüksəldilməsi və təhsil sahəsində vəziyyətin yaxşılaşdırılması**

Hazırda inkişaf etməkdə olan ölkələrdə 83 faiz gənc oxuya bilir və böyük əhalinin 76 faizi yazıb-oxumağı bacarır, uşaqların isə 84 faizi ibtidai məktəblərə gedir. Bu gün məqsəd 2015-ci ilə bütün uşaqların tam ibtidai təhsil almalarını təmin etməkdir. Təhsilə dəstək verən və qadınların imkanlarının genişləndirilməsinə yönəldilən proqramlar inkişaf etməkdə olan ölkələrdə qadınların savadlılıq səviyyəsini 1970-ci ildə 36 faizdən 2007-ci ilə 79 faiz səviyyəsinə yüksəltməyə kömək etmişdir. Hazırda, məqsəd 2015-ci ilə bütün qızların tam ibtidai və orta məktəb təhsili almalarına nail olmaqdır.

**51 Dünya ictimaiyyətinin uşaqlara dəstək verməyə qətiyyət göstərməsi üçün səfərbər edilməsi**

Salvadordan Livana, Sudandan keçmiş Yuqoslaviyaya kimi dünyanın bir çox "qaynar nöqtələrində", UNICEF silahlı münaqişələrdə yaşayan uşaqlar üçün həyati əhəmiyyət kəsb edən peyvəndlərin və digər yardımın çatdırılması üçün "asayiş günləri"nin elan edilməsi və "sülh dəhlizlərinin" açılması kimi yeni bir təşəbbüslə çıxış etmişdir. BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyası 193 ölkədə qanun kimi tətbiq edilir. 2002-ci ildə BMT-nin Baş Assambleyasının uşaqlara həsr edilmiş xüsusi sessiyasından sonra 190 ölkənin hökuməti öz üzərinə səhiyyə, təhsil, qəddar rəftar, istismar və zorakılıqdan müdafiə və HİV/AİDS-ə qarşı mübarizə sahələrində kompleks məqsədləri konkret zaman çərçivəsində icra etmək öhdəliyi götürmüşdür.

**52 Tarixi, mədəni, arxitektura və təbii abidələrin qorunub saxlanılması**

BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO) 137 ölkəyə qədim abidələrin, tarixi, mədəni, arxitektura və təbii əhəmiyyətli yerlərin qorunub saxlanılmasında kömək etmişdir. Həmçinin bu təşkilatın köməkliyi ilə mədəni mülkiyyətin, mədəni müxtəlifliyin və görkəmli tarixi və təbii yerlərin qorunub saxlanılması üzrə beynəlxalq konvensiyalar razılaşdırmışdır. 850-dən çox yerlər xüsusi ümumdünya əhəmiyyəti olan yer kimi qeyd edilib.

**53 Akademik və mədəni mübadilələrin dəstəklənməsi**

Birləşmiş Millətlər Təşkilatı, UNESCO və Birləşmiş Millətlər Təşkilatı Universitetinin vasitəsilə, akademik və elmi əməkdaşlığa, ali təhsil institutlarının şəbəkəsi və mədəni etnik azlıqları və yerli xalqları da daxil olmaqla mədəni özünəməxsusluğun ifadəsini təbliğ edir.

## 54 Yaradıcılıq potensialı və İnnovasiya

Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜQMT) əqli mülkiyyət hüquqlarının müdafiəsini təbliğ edir və bütün dünya ölkələrinin effektiv əqli mülkiyyət sistemindən istifadəsini təmin edir. Əqli mülkiyyət, mahiyyət etibarı ilə ixtiraçı və yaradıcıların bacarıqlarının ictimai marağı nəzərə almaqla tanınması və mükafatlandırılması mexanizmidir. Əqli mülkiyyət sisteminin hüquqların müdafiəsi insanın yaradıcı potensialını stimullaşdırır, elm və texnologiyanın sərhədlərini daha da genişləndirməyə və ədəbiyyat və incəsənət dünyamızı zənginləşdirməyə imkan verir.

## 55 Mətbuat azadlığı və özünüifadə azadlığına dəstək

Bütün insanların senzuradan azad və mədəni müxtəlifliyi əks etdirən məlumatları ala bilməsi üçün, UNESCO kütləvi informasiya vasitələrini inkişaf etdirməyə və gücləndirməyə kömək edir və müstəqil mətbuat və yayım qurumlarına dəstək verir. Eyni zamanda, UNESCO mətbuat azadlığına nəzarəti həyata keçirir və jurnalistlərin öldürülməsi və saxlanılması kimi ciddi qanun pozuntularını ifşa edərək ictimai surətdə pisləyir.

## 56 Ev və şəhər idarəetməsinin inkişaf etdirilməsi

Hazırda, bəşəriyyətin yarısı şəhərlərdə yaşayır. Milli istehsal və istehlakın, yəni sərvət və imkanları yaradan iqtisadi və sosial proseslərin böyük hissəsi məhz şəhərlərdə təmərküzləşmişdir. Lakin, şəhərlər həm də xəstəliklər, cinayətkarlıq, çirkab və yoxsulluğun mövcud olduğu bir məkandır. Xüsusilə inkişaf etməkdə olan ölkələrdə, bir çox şəhərlərdə əhalinin yarıdan çox hissəsi xarabalıqlardan ibarət rayonlarda yaşayır və onların münasib ev, su və kanalizasiyadan istifadə imkanları ya çox məhduddur, ya da ümumiyyətlə yoxdur. Dünyanın 50 ölkəsində 150-dən artıq texniki proqram və layihəni həyata keçirən BMT Məskunlaşma Proqramı (UN-HABITAT) proqramı hökumətlər, yerli hakimiyyət orqanları və qeyri-hökumət təşkilatları ilə birgə işləyərək kiçik və böyük şəhərlərin üzləşdiyi bu vəziyyətdən yeni çıxış yollarını tapmağa çalışır. Buraya şəhər yoxsulları üçün yaşayış yerindən əsassız köçürülməyə qarşı təminatın verilməsi də daxildir – belə ki, məhz şəhər yoxsulları, öz növbəsində, yoxsullar üçün yaşayış yeri və ilkin xidmətlərə investisiya yatırımı üçün katalizator rolunu oynayır.

## 57 Qlobal şəbəkəyə yerli çıxışın təmin edilməsi

Ümumdünya Poçt Birliyi (UPU) beynəlxalq poçtların mübadiləsini asanlaşdırır və insanlar və şirkətlər arasında müasir poçt xidmətləri ilə sosial, mədəni və ticarət əlaqələrini inkişaf etdirir. Bütün dünyadan olan 660 min poçt işçiləri dünyada məlumat, əmtəə və pul mübadiləsini asanlaşdıran ən geniş şəbəkələrdən birini qurur. İnternet və yeni texnologiyalar poçt xidmətləri üçün yeni imkanlar yaratmışdır. Məsələn, elektron ticarət sahəsində mallar elektron sifariş edilsə də onların çatdırılması üçün poçt xidmətindən istifadə etmək lazım gəlir. Poçt fiziki, rəqəmli və maliyyə əməliyyatları üçün əsas körpü rolunu oynamaqda davam edir və qlobal inkişaf üçün mühüm tərəfdaşdır.

## 58 Əlilliyi olan insanların hüquqlarının təmin edilməsinə dəstək

Birləşmiş Millətlər Təşkilatı əlilliyi olan insanların tam bərabərliyi uğrunda aparılan mübarizənin ön sırasında yer alır və əlillərin sosial, iqtisadi və siyasi həyatda iştirakını dəstəkləyir. BMT əlilliyi olan insanların cəmiyyət üçün dəyərli resurs olduğunu hesab edir və ilk dəfə olaraq onların hüquq və ləyaqətlərinin bütün dünyada təmin olunması üçün müqavilə razılaşdırmışdır: bu 2008-ci ildə qüvvəyə minmiş Əlilliyi olan İnsanların Hüquqları haqqında Konvensiyadır.

## 59 Qlobal telekommunikasiyanın təkmilləşdirilməsi

Beynəlxalq Telekommunikasiya Birliyi (BTB) qlobal telekommunikasiya şəbəkələri və xidmətlərinin fəaliyyətini inkişaf etdirmək və əlaqələndirmək məqsədilə hökumətləri və sənaye nümayəndələrini bir araya gətirir. BTB radio tezliklərin diapazonundan ortaq istifadəni əlaqələndirir, peyk orbitlərinin paylanması sahəsində beynəlxalq əməkdaşlığı dəstəkləyir, inkişaf etməkdə olan ölkələrdə telekommunikasiya infrastrukturunun təkmilləşdirilməsi üçün tədbirlər görür və geniş çeşiddə kommunikasiya sistemlərinin arasıkəsilməz qarşılıqlı əlaqə yarada bilməsini təmin edən qlobal standartlara dair danışıqlar aparır. Geniş zolaqlı İnternetdən başlayaraq yeni nəsil simsiz əlaqə texnologiyalarına qədər, hava və dəniz gəmilərinin naviqasiyasından radioastronomiya və peykdən istifadə edilən meteorologiyaya qədər, telefon xidmətlərindən televiziya yayımı və yeni nəsil kommunikasiya şəbəkələrinə qədər – bütün kommunikasiya sahələri üzrə BTB dünyanı birləşdirməyi öhdəliyinə sadiq qalır. Onun fəaliyyəti sayəsində telekommunikasiya sənayesi böyüyərək 1.3 trilyon ABŞ dolları dəyəri olan qlobal iqtisadi sektora çevrilmişdir.

## 60 Yerli xalqların vəziyyətinin yaxşılaşdırılması

Birləşmiş Millətlər Təşkilatı planetimizin ən məzlum və həssas əhali qruplarından olan 90 ölkədə yaşayan yerli xalqların 370-dən 500 milyon nümayəndəsinə qarşı yol verilən ədalətsizlikləri dünya ictimaiyyətinin diqqətinə çatdırmışdır. Yerli Xalqların Məsələləri üzrə 2000-ci ildə yaradılmış 16 üzvü olan Daimi Forum bütün dünyada yerli xalqların vəziyyətinin inkişaf, mədəniyyət, insan hüquqları, ətraf mühit, təhsil və səhiyyə istiqamətlərində yaxşılaşdırılması üçün tədbirlər görür.

## Birləşmiş Millətlər Təşkilatının Nobel mükafatları

2007 İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Ekspert Qrupu
2005 Beynəlxalq Atom Enerjisi Agentliyi və onun Baş Direktoru Məhəmməd Əl Bərdai
2001 Birləşmiş Millətlər Təşkilatı və onun Baş Katibi Kofi Anan
1988 Birləşmiş Millətlər Sülhməramlı Qoşunları
1981 Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Ofisi
1969 Beynəlxalq Əmək Təşkilatı
1965 Beynəlxalq Millətlər Təşkilatının Uşaq Fondu

1961 Dag Hammarskyöld, BMT Baş Katibi
1954 Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Ofisi
1950 Ralf Bunç, BMT Qəyyumluq Bölməsinin Direktoru

Birləşmiş Millətlər Təşkilatının İctimaiyyətlə Əlaqələr Departamenti tərəfindən hazırlanmışdır, 55146--DPI/2045--Dekabr 2005